# HEYDƏR ƏLİYEV BEYNƏLXALQ HAVA LİMANINDA QIŞLAMA DÖVRÜNDƏ ORNİTOLOJİ MÜŞAHİDƏLƏR

**Tağıyev Ə.N., Qurbanova N.Ə.**

*Bakı Dövlət Universiteti*
*abulfaztagiyev@yahoo.com*

2022-ci ilin fevral ayında Heydər Əliyev Beynəlxalq Hava limanında uçuşların təhlükəsizliyinin ornitoloji tədqiqi aparılıb.Tədqiqat müddətində havanın orta temperaturu 8,0$^0$-13,0$^0$ C, küləyin orta sürəti 5,0 m/s-8,0 m/s olub. Tədqiqatlar şənbə, bazar günləri saat 8.00-14.00-da hava limanının elektron hasar çevrəsi boyunca, qamışlı-yulğunlu ot bitkiləri olan bataqlıq ərazidə, uçuş-enmə zolağının kənarında və açıq quru düzənlik ərazilərdə marşrut üsulu ilə aparılıb.

Heydər Əliyev Beynəlxalq Hava limanı Qafqazda ən böyük beynəlxalq hava limanıdır. Hava limanı Xəzər dənizinin 2,0 km-də, Binə qəsəbəsində yerləşir. Hava limanının ümumi sahəsi 1565,7 ha, çevrəsi ~27,0 km olub elektron hasar ilə mühafizə olunur. Hava limanı PCN 150 F/A/W/SÖUEZ 353$^0$-173$^0$ kursla enən A,B,C,D,E kateqoriyalı hava gəmilərinin və bütün növ helikopterlərin istismarına yararlıdır. Hava limanında asfalt-beton səthə malik uzunluqları 3,2 km və 4,0 km olan iki uçuş-enmə zolağı fəaliyyət göstərir. Uçuş-enmə zolaqlarının hər iki tərəfində uçuşların təhlükəsizliyini təmin etmək məqsədi ilə Kanada istehsalı olan MK-III tipli cihazlardan və səs gücləndiricilərdən istifadə edilir. Uzunluğu 3,2 km olan uçuş-enmə zolağının kənarlarında 7 beyin (komplekt), 42 səsgücləndirici, uzunluğu 4,0 km olan uçuş-enmə zolağı ətrafında 12 beyin, 72 səsgücləndirici yerləşdirilib. Hər bir beyin 6 səsgücləndiricini idarə edir. Hər səsgücləndiricinin səs yayma radiusu 750 m-dir. Bir beyin ilə digər beyin arasında məsafə 900 m, bir səsgücləndirici ilə digər səsgücləndirici arasında məsafə 300 m-dir. Bu cihazlar müəyyən intervalla yırtıcı quşların və digər texnogen mənşəli səslərlə uçuşların təhlükəsizliyini təmin etmək üçün quşları uçuş-enmə zolağından uzaqlaşdırmağa xidmət edir.

Tədqiqatlar zamanı Hava limanının açıq çəmənlik ərazisində 8 fərd *Corvus cornix*, təyyarələrin yük boşaldılan ərazisində bir fərd *Galerida cristata*, bir fərd *Corvus cornix*, 60 fərd *Corvus frugilegus*, quru qamışlıq sahədə bir fərd *Falco tinnunculus*, nar ağaclarının arasında bir fərd *Turdus merula*, bataqlıq ərazidə bir fərd *F.tinninculus*, bir fərd *Circus aeruginosus* qeydə alınmışdır. Hava limanının Sabunçu rayonu Şuşa şəhərciyi yaşayış məntəqəsi ilə sərhəd ərazidə 40 fərd *C.frugilegus*, 9 fərd *C.cornix*, mühafizə elektron hasarı üzərində bir fərd *G.cristata*, Maştağa qəsəbəsi istiqamətində kənd təsərrüfatı bitkiləri əkilən ərazidə 15 fərd *C.frugilegus*, 20 fərd *C.cornix*, 3 fərd *Ardea cinerea*,13 fərd *Ardea alba*, 2 fərd *Egretta garzetta*, 24 fərd *Sturnus vulgaris*, elektron hasar üzərində 3 fərd *G.cristata*, elektron hasardan 7-8 m aralı daş hasar

üzərində bir fərd *Athene noctua*, hündürlüyü 25-30 m olan qüllə üzərində bir fərd *C.cornix* qeydə alınıb. Binə yaşayış məntəqəsi istiqamətində 2 fərd *Columba livia*, 1fərd *C.cornix*, 3 fərd *C.frugilegus*, ərazinin qərb zolağında 2 fərd *C.livia*, 41 fərd *C.frugilegus* müşahidə edilib. Uzunluqları müxtəlif olan hər iki uçuş-enmə zolağının kənarlarında 11 fərd *C.frugilegus* qeydə alınıb.

Heydər Əliyev Beynəlxalq Hava limanında qeydə aldığımız quşladan əsas təhlükə mənbəyi olan *Galerida cristata, Columba livia, Sturnus vulgaris* növləridir. Bu növlərin uçuş-enmə zolağında havada sürətli uçuşu zamanı hava gəmiləri ilə toqquşması nəticəsində hava gəmilərinin alın şüşələri zədələnərək sıradan çıxır. *F.tinninculus* azsaylı və tək-tək rast gəlinsə də təhlükə yaradan növlərdən hesab olunur. *Corvus cornix* və *C.frugilegus* növləri uçuş-enmə zolağına yaxın məsafələrdə qeydə alınmalarına baxmayaraq hava gəmiləri ilə təhlükə yaratmırlar (hava limanının ornitoloji qrupunun məlumatı). Bu növlər hava gəmilərinin uçuşu və enməsi vaxtı təhlükəni vaxtında hiss edib uzaqlaşa bilirlər.